

Çinarə ÖMRAY

# Dörd divar

*hekayə*

Həmin qapının cırıltı səsinə dördümüz də dik atıldıq yuxudan. İllərdi qaranlıqda yaşayan, qaranlığa öyrəşən gözlərimizə günəş işığı bir andaca hücum etdi. Nə baş verdiyini, bu qapını kimin açdığını hələ də heç birimiz anlamırdıq. Günəş işığına qamaşan gözlərimizi qapıya zilləmişdik. Kim idi gələn?

İllərdi dördümüz də çiyin-çiyinə verib bu damı çiyinlərimiz üstündə saxlayırıq. Bu qaranlığa, bu otağa niyə həbs olunmağımızdan da xəbərsizik. Hərdən çöldəki dostuma haylanıb soruşuram ki, orda yaşayış varmı? Həyat davam edirmi? O da hər şeyin axarında olduğunu deyəndə anlayıram ki, bu, nə bəladırsa, tək bizim başımıza gəlib. Qaranlıqdan, havasızlıqdan və nəmişlikdən üzümüzdə çartlar əmələ gəlib. Bir dəfə necə dolu yağmışdısa, pəncərənin bir şüşəsi bir balaca qırılmışdı. Elə bil onu da Allah eləmişdi, yazığı gəlmişdi bizə. Ordan hava yeri qoymuşdu ki, heç olmaya nəfəs ala bilək. Hərdən dördümüz də bir-birimizə qaranlıqda baxar və keçmiş o şən günlərimizdən söhbət açardıq. Amma qətiyyən o hadisədən danışmazdıq. Bizim kabusumuz olan o hadisədən. Sadəcə, gözəllikləri xatırlayar və gülərdik. Çöldəki dostum deyirdi ki, bizə həyətdə adamlar ad da qoyublar. Xarabalıq, kabus ev deyirlər bizə. Dediyinə görə, bizdən qorxur hamı.

Bu gün qapımızın açıldığını görəndə, həm sevinmiş, həm də təəccüblənmişdik. Sevinmişdik ki, bu rütubət qoxuyan otağa sonunda bir təmiz hava daxil oldu. Nəmişlikdən, havasızlıqdan az qala dördümüz də diz çökəcəkdik. Amma bir tərəfdən də bunca zaman sonra kim və niyə bu qapını açsın deyə, təəccüblənmişdik. Qorxumuz o kabus günü yenidən xatırlamaq idi. Biz belə o günü xatirəmizdən silmək istəyirdik.

Qapıdan içəri qorxaq və yeyin addımlarla bir xanım daxil olur. İşıqları yandırır. Hamımız illərin yuxusundan diksinirik. Daş yuxuları aralaya-aralaya xanıma diqqətlə baxırıq. O da bizə baxır. Görünən odur ki, o bizi tanıyır. Bəs biz onu niyə tanımırıq? Otaq işıqlanır və mənim ilk gördüyüm qarşımda dayanan yoldaşımın sinəsindən asılan təqvim olur: 1989-cu il. Hə bizim işığımız elə o ildən sönüb. Həmin kabus gecənin baş verdiyi ildən. İndi neçənci il, neçənci əsrdi, heç birimiz bilmirik. Dördümüz də qadına baxırıq.

Qapı açıq olduğu üçün çöldən gələn boğuq səslər açıq-aydın eşidilir: "Lənətlik qarı, nə üzlə gəlmisən?", "Çıx get burdan!". Qadın tez qapını bağlayıb elə ordaca qulaqlarını tutub çömbəlir. Biz hələ də nə baş verdiyini anlamırıq. Ağ pırtlaşıq saçlı, yaşlı bu qadın kimdir axı belə? Ağlayaraq oradaca yuxuya gedir. Biz isə öz aramızda astaca danışırıq ki, yuxudan oyatmayaq. Nə qədər müzakirə edirik, heç bir nəticəyə gələ bilmirik. Amma yenə də sevindiyimiz bir şey var, uzun zaman, bəlkə illər, bəlkə əsr sonra işığımız yandı, insan nəfəsi toxundu bizə. O lənət gecədən sonra həyat işığı bağlanmışdı üzümüzə.

Yəqin ki, saatlar keçmiş sinəmə toxunan bir əlin hənirtisi oyatdı məni. Sinəmi, saçımı, üzümü sığallayırdı. Həmin qadındı. Elə gözəl nəvazişlə sığallayıb öpürdü, sanki bala anasının baş daşını sığallayır. Üzünü üzümə toxundurdu, öpdü.

Bu, həqiqətən də, dəhşət, inanılmaz idi. Bu, o idi, mən necə tanıya bilməmişdim axı. İllər onu bu qədərmi dəyişmişdi? Yox, ola bilməzdi, o bu qədər yaşlana bilməzdi. Bu evə onun ilk gəlişini xatırladım. Onlar ilk dəfə bu evə gələndə ev bomboş idi. Heç bir əşyaları da yox idi. Amma əvəzində böyük dünyalara sığmayan sevgiləri var idi. Həmin gün ikisi də mənə söykənib otağa baxırdılar. Sonra arzular qurdular. Amma o arzuların içində həmin gecə, o bədbəxt hadisə yox idi. O arzuların içində sevgi, o sevgidən doğan uşaqlar var idi. O arzularda nəfəs alan, gülümsəyən xoşbəxtlik vardı. Və elə həmin gecə də arzuları xəyallarının əlindən tutub onları aparmışdı ta uzaqlara, elə mənə söykənib yuxuya getmişdilər. İndiki kimi. Amma indiki kimi tək və bədbəxt halda yox. Sonra bu boş otaqlar gün keçdikcə dolmağa başlamışdı. Bir gün divan qonaq gəldi bizə, bir gün stollar, o biri gün çarpayı. Sanki onların sevgisinə şahid olsun deyə, əşyalar sıraya düzülmüşdü bu evə gəlməyə.

O, ilk dəfə bu evə gələndə üzünə, gözəlliyinə baxmaqdan doymazdıq, evin içində onun hər addımını izləyən o məsum uşaq baxışları ilə, bizə nəzər yetirməsinə sevinərdik. Nazik, ağ, incə əlləri ilə bizə hər toxunanda sanki canımıza can gələrdi. O qədər incə idi ki, iki göyərçin belə onu alıb apara bilərdi göylərə. Sanki Allah onu xüsusi bir səbirlə, hikmətlə, usanmaz bir sevgiylə yaratmışdı. Amma başı gözəlliklərə, sevgiyə necə qarışmışdısa, bəxt yazmağı unutmuşdu. Bu gözəlliyin bir qarı şəklində qarşımıza dikilməsi məni, həqiqətən də, məhv etmişdi. Amma yenə də gözlərindəki məsumiyyəti, əllərindəki o istiliyi itirməmişdi. Qapının yanından gəlib əlinin nəvazişi ilə məni oyatdı, öpdü, mənə qısılıb yenidən yatdı. Bir gün bu gözələ sinəmdə sabahacan layla deyəcəyim heç ağlıma da gəlməzdi. Kaş ki, əllərim olsaydı da, başına bir sığal çəkə bilsəydim, bağrıma basa bilsəydim. "Sənin heç bir günahın yoxdu, buna biz şahidik", - deyə bilsəydim. Bir də səbirsizliklə sabahın açılmasını gözləyirdim. Dostlarımın oyanmasını və onlara bu qadının kim olduğunu deməyi hədsiz çox istəyirdim. Sanki gecə də mənə inad uzanırdı, sabah gəlmək istəmirdi. Bir tərəfdən xoş idi. Məsum bir mələyin mənə sığınıb yatmasının zamanı uzanırdı, bir yandan da bu xoşbəxtliyi illərlə mənimlə əzab çəkən dostlarıma da demək, danışmaq istəyirdim.

Səhərə qədər yanılı qalan, illərdi həsrətində qaldığım həmin o işığı su kim içdim, nəfəs kimi içimə çəkdim. İşığa həsrətlə yaşamaq dəhşətdi. Həmin gecə səhərə qədər dostlarımın üzünə baxdım, üzlərindəki çatlarına baxdım. Bir də xatırlamaq istəmədiyim o lənət gecəni xatırladım anbaan. İllərdi bizə həmdəm olan, bizimlə həmsöhbət olan sükutla bu gecə, sadəcə, susduq və hər ikimiz xatırladıq.

O gecəni bütün çığırtısı, ağrı-acısı ilə duyurdum. O böyüklükdə sevgi bir andaca bir quş olub uçmuşdu bir gecədə.

Əvvəl evə sevgiylə, min bir əziyyətlə qazanılıb alınan o divan bir şüşə arağa çıxıb getdi evdən. Ta o gün qara buludlar çökmüşdü bu gözəlin üzünə. Sonra o stollar getdi bir şüşə arağa, sonra xalça. Əvvəlki halına qayıtmışdı ev. Bir çarpayı, bir onlar, bir də qışqırıq, şillə səsləri... Sevgi isə yalnız səhərlər qonaq gəlirdi. Tam çarpayının yanında dayanırdı. O səhər ayılıb axşamdan etdiyini görəndə peşman olur, çarpayının yanında dayanan məsum sevgiyə bürünür, ağlayır, nə etdiyinin fərqinə varırdı. Amma o sevginin axşama qədər onunla qala biləcəyinə də heç birimiz inana bilmirdik. Hərdən də o qıza daş qəlbimizlə acıyır, bağrımıza basıb qorumaq istəyirdik.

Sabah açıldı. Sinəmdə yatmış o məsum gözlü varlıq qəribə, qorxunc bir naləylə oyandı. Kabus görmüşdü, deyəsən. O səsə dostlarım da dik atıldılar yuxudan. Qadın oyandı və bizə diqqətlə baxdı, baxdı, sonra hönkürərək ağladı. Mən macal tapıb ağzımı açmamış dostlarım onu hıçqırığından, ağlamağından tanıdılar. Hamısı şaşırmış halda idilər. Nə baş verirdi axı? Bu odurmu? Axşamdan keçirdiyim bütün hissləri onlar da keçirirdilər. Qadın əlini üzümüzdə gəzdirə-gəzdirə otağı dolaşır və hıçqıraraq ağlayırdı. "Niyə? Axı niyə belə oldu?" - deyib, özündən də, bizdən də hesab sorurdu. Sonra o lənət gecədəki hadisənin baş verdiyi həmin yerə gəldi və döşəməyə üzü üstə uzanıb ağlamağa başladı. Elə oradaca halsız düşüb yenidən ağlaya-ağlaya yuxuya getdi. Yuxudan ayılıb qəribə bir cəldliklə evdən çıxdı. Çıxmağıyla da "Lənət qarı", "çıx get burdan", "nə üzlə qayıtmısan", "qatil!" sözləri ilə də özünü içəri saldı. Və yenidən ağlamağa başladı. Biz ona heç bir kömək edə, təsəlli verə bilmirdik. Kaş ki, eyni dildə anlasaydıq, kaş ki, ona münasibətimizi başa sala bilsəydik. Kaş ki...

Əlindəki bağlamanı açdı. İçindən bir parça çörək çıxardıb yemək istəyirdi ki, pəncərəni dimdikləyən sərçəyə gözü sataşdı. Tez pəncərəni açdı - o, heç dəyişməmişdi, əvvəlki kimi mərhəmətli idi - payızın ılıq havası sanki çöldəkilərə xəbər aparırmış kimi, otağa girib fır-fır fırlandı, sonra çıxdı. Pəncərədən çöldə nə var idisə, hamısı üçün maraqlı idi bu ev, bu otaq. Bu külək illərdi gəlib hamıdan, hər yerdən xəbər bilib gedirdi, bir tək bu otaqdan xəbərsiz idi. Bu gün ona görə də pəncərə açılar-açılmaz özünü otağa saldı. Nə yalan deyim, onun gəlişi bizə də nəfəs oldu. Pəncərənin qabağında bitən söyüd və tut ağacları da sanki külək onları itələyirmiş kimi əyilib içəri baxdılar. Biz illərdi təbiətin üzərinə qapanmış bir yer kimi bütün canlılara maraqlı idik. Elə bizə də bütün təbiət maraqlı idi, açıq pəncərədən gözucu çölə boylanır, biri-birimizə xəbər verirdik.

O pəncərəni açdı və xoşbəxtliyi, sevgisi kimi bir andaca həmin sərçə də uçub getdi. Amma o, yenə də əlindəki çörəkdən bir parça kəsib sərçə üçün qoydu. Axı öz boğazından kəsib sərçəni doyuran bir adama çöldəkilər necə qatil deyə bilirdi?

Biz onun, həmin gecənin tək şahidləri idik... evdə olan son çarpayını da aparmağa gəlmişdilər. Qadının diliylə desək, bir şüşə arağın puluna. O halda heç kəs ona qarşı çıxa bilməzdi, hətta sevdiyi qadın belə. Gecə yarıdan keçmiş hər zamankı kimi bizim otağın işığı yanılı, o isə mənə söykənib pəncərədən çölə baxır, onu gözləyirdi. Bu gün onların evliliklərinin ildönümü idi. Stolu satdıqları üçün yerdən süfrə açmış, bir neçə dilim çörək, iki boşqab və bir də yonma stəkanın içində şam var idi. Qadınlar həqiqətən də qəribədir: hər an nəyinsə düzələcəyinə ümidləri olur. Son əşya olan çarpayını da bir az öncə satmağa aparan adamdan necə bu günü xatırlamasını gözləyə bilirdi axı?

Sonra qalxıb bütün pəncərələri açdı, hava içimizdən keçdi. Payızın qorxaraq pəncərədən boylanan küləyi indi bizimlə qucaqlaşır, otaqda qayğısız uşaq kimi qaçdı-tutdu oynayır, hərdən də evin tən ortasında dayanıb dostumun sinəsindən asılmış 1989-cu il təqviminə diqqətlə baxan qadının ağ, yorğun saçları ilə pişik iplə oynayan kimi oynayırdı. Çox şıltaq idi bu külək, sanki bu qocaman payız bu otaqda uşaqlaşmışdı. Hələ pəncərədən boylanan ağaclar da yarpaqları ilə gülümsəyirdilər payızın bu uşaqlığına.

O isə təqvimin qarşısında dayanıb düşünürdü. Mən onun düşüncəsindən keçəni oxuya bilirdim. Hətta təqvimin hansı gününə baxdığını belə təxmin edirdim. Axı payızın şıltaq küləyi haradan bilə bilərdi ki, o gün, o gecə nələr baş vermişdi.

Həmin gecə o, evə səhərəyaxın gəldi. Biz isə hamımız oyaq qalıb, onu gözləyirdik. Qapının döyülüşündən onun hansı halda gəldiyini təxmin etmək olurdu. O, otağa girdi, qadın yuxulu gözlərindən yuxusunu güclə qovaraq gülümsəməyə çalışdı və onu süfrəyə dəvət etdi. Kişi bir andaca fərqli bir görkəm alıb qadına hücum etdi: "Bunları almağa pulun var idisə, niyə mənə vermirdin?". Qadın özünü cəmləyib cavab verməyə belə macal tapmamış onu döyməyə başladı. Sanki gözü dönmüşdü. Əvvəl boğazından tutub mənə sıxdı, qadının kürəyi mənə bitişdiyindən hiss edirdim ki, bu dəqiqə ürəyi ordan çıxacaq. Onun əlindən güclə çıxdı, qaçmaq istədi, amma bir otağın içində hara qaça biləcəkdi ki? Kişi qarşısına məqsəd qoymuşdu, cavabını dinləmədən qadına "Pulu hardan almısan?", "mənə niyə verməmisən", - deyə suallar verir və ağır zərbələr endirirdi. Birdən gözü yerdəki düz boşqabın içində olan iki alma və yanındakı bıçağa sataşdı. Yerdən bıçağı götürüb qadına tərəf gəldi. Qadın yarpaq kimi əsdi. Kişi onun boğazından yapışıb mənə dirədi. Qadın son kəs gücünü yığıb onu itələyəndə kişi müvazinətini itirib əlindəki bıçağın üstünə yıxıldı... bütün otaq qırmızıya, qadının günü isə qaraya boyandı. O gündən qapımızı açan olmadı. Bir neçə dəfə qadını əliqolu bağlı gətirdilər, hadisənin necə baş verdiyini soruşub, yenə də apardılar...

Günlər keçir, bizə də günəş gülümsəyir, bizə də insan nəfəsi toxunurdu. O isə evdən demək olar ki, çölə çıxmırdı. Nəfəs alan, addımlayan insanlardan qaçıb bizə sığınmışdı. Təkcə biz - dörd divar qınamırdıq onu, bir payızın küləyi, bir də o sərçə. Biz inanırdıq onun məsum olduğuna, qatil olmadığına. Daşın ürəyi olmaz deyər, insanlar, amma daşın bir daş yaddaşı var. Bu gün o, uzun zamandan sonra ilk dəfə əlində bir təqvimlə gəldi, dostumun sinəsindən o saralmış 1989-cu il təqvimini açıb yerinə əlindəkini asdı: 2016-ci il.

Tam 26 il keçibmiş. Amma bir tək biz - dörd divar inanırdıq onun məsum olduğuna, bir payız küləyi, bir də o sərçə...

